# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2023-ci il tarixində başa çatan il üzrə
Konsolidə edilmiş Maliyyə Hesabatları və
Müstəqil Auditor Hesabatı

**Deloitte.**

Deloitte & Touche MMAC
Bakı Ağ Şəhər Ofis Binası,
8 Noyabr pr. 25E
Bakı, AZ1025, Azərbaycan
Tel: +994 (12) 404 12 10
Faks: +994 (12) 404 12 11
www.deloitte.az

## MÜSTƏQİL AUDİTOR HESABATI

"AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarına və Rəhbərliyinə:

### Rəy

Biz "AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2023-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir, konsolidə edilmiş kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə əhəmiyyətli uçot siyasəti məlumatlarının icmalı daxil olmaqla, qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2023-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidə edilmiş maliyyə nəticələri və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### Rəyin əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Biz, Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının *Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə* ("MBESŞ Məcəlləsi") uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi bu tələblərə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

### Konsolidə edilmiş maliyyə hesabatları üzrə rəhbərliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited ("DTTL"), onun üzv şirkətlərinin qlobal şəbəkəsi və əlaqəli qurumları da daxil olmaqla, sadalananlardan birinə və ya bir neçəsinə istinad edir. DTTL (həmçinin "Deloitte Global" adlanan) və onun üzv şirkətlərinin hər biri hüquqi olaraq fərdi və müstəqil qurumlardır. DTTL müştərilərə xidmət göstərmir. Daha ətraflı məlumat üçün www.deloitte.com/about müraciət edin.

© 2024 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün əhəmiyyətli təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürülməklə, istifadəçilərin hazırkı konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mühakimələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu siyasətlərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə önəmli şübhə doğura biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.
- Konsolidə edilmiş maliyyə hesabatlarına rəy bildirmək üçün Qrup daxilindəki müəssisələr və ya biznes fəaliyyətlərinin maliyyə məlumatları ilə bağlı yetərli və uyğun audit sübutu əldə edirik. Biz Qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı, əhəmiyyətli audit nəticələri, habelə audit zamanı daxili nəzarət sahəsində aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte + Touche LLC

DELOITTE & TOUCHE MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ AZERBAIJAN

28 iyun 2024-cü il

# "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

***(min Azərbaycan manatı ilə)***

| | 2023 | 2022 |
|---|---|---|
| **GƏLİR** | | |
| Enerji satışı | 1,685,264 | 1,840,564 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | 3,024 | 6,987 |
| Digər gəlirlər | 3,741 | 4,128 |
| **Cəmi gəlir** | **1,692,029** | **1,851,679** |
| **ƏMƏLİYYAT XƏRCLƏRİ** | | |
| Yanacaq | (809,242) | (806,424) |
| Köhnəlmə və amortizasiya | (278,518) | (272,532) |
| İşçi xərcləri | (104,810) | (79,777) |
| Təmir və texniki xidmət | (120,131) | (70,569) |
| Mənfəət vergisindən başqa digər vergilər | (26,902) | (33,086) |
| Xammal və materiallar | (21,414) | (18,891) |
| Alınmış elektrik enerjisi | (15,751) | (44,819) |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi ehtiyatında dəyişiklik | (798) | (12,025) |
| Digər xərclər | (69,700) | (61,876) |
| **Cəmi əməliyyat xərcləri** | **(1,447,266)** | **(1,399,999)** |
| **Əməliyyat mənfəəti** | **244,763** | **451,680** |
| Maliyyə xərci, xalis | (24,590) | (25,269) |
| Xarici valyuta mübadiləsindən gəlir | 160,351 | 204,401 |
| Xarici valyuta mübadiləsindən zərə | (144,521) | (98,944) |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmənin bərpası | 441 | 3,070 |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **236,444** | **534,938** |
| Mənfəət vergisi xərci | (61,332) | (98,432) |
| **İl üzrə xalis mənfəət** | **175,112** | **436,506** |
| **İl üzrə sair məcmu gəlir, mənfəət vergisi çıxılmaqla** | | |
| Xarici valyuta ilə əməliyyatların çevrilməsindən yaranan məzənnə fərqləri | (6,448) | 9,071 |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | **168,664** | **445,577** |

## "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
***(min Azərbaycan manatı ilə)***

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 3,955,338 | 3,533,969 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 435,671 | 130,965 |
| Təxirə salınmış vergi aktivləri | 18,488 | 16,874 |
| Digər uzunmüddətli aktivlər | 86,148 | 81,572 |
| **Cəmi uzunmüddətli aktivlər** | **4,495,645** | **3,763,380** |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 50,327 | 52,286 |
| Əvəzləşdirilə bilən ƏDV | 480,691 | 322,230 |
| Ticarət və digər kreditor borcları | 133,179 | 119,487 |
| Avans ödənişləri | 34,443 | 15,126 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 119,587 | 250,000 |
| **Cəmi qısamüddətli aktivlər** | **818,227** | **759,129** |
| **CƏMİ AKTİVLƏR** | **5,313,872** | **4,522,509** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 3,020,828 | 2,711,696 |
| Yığılmış zərər | (1,994,391) | (2,164,739) |
| Məzənnə fərqləri üzrə ehtiyat | (4,387) | 2,061 |
| **CƏMİ KAPİTAL** | **2,782,545** | **2,309,513** |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissə | 894,268 | 848,670 |
| Dövlət subsidiyaları | 103,788 | 115,506 |
| Təxirə salınmış vergi öhdəliyi | 221,420 | 203,107 |
| Ticarət və digər kreditor borcları | 277,858 | 278,890 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **1,497,334** | **1,446,173** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissə | 371,748 | 324,328 |
| Ticarət və digər kreditor borcları | 340,263 | 294,266 |
| Cari mənfəət vergisi öhdəliyi | 92,196 | 58,735 |
| Ödənilməli mənfəət vergisindən başqa vergilər | 229,786 | 89,494 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **1,033,993** | **766,823** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2,531,327** | **2,212,996** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **5,313,872** | **4,522,509** |

## 31 DEKABR 2023-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
***(min Azərbaycan manatı ilə)***

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Məzənnə fərqləri üzrə ehtiyat | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | **1,760,495** | **2,492,299** | **(7,010)** | **(2,601,245)** | **1,644,539** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 9,071 | 436,506 | 445,577 |
| Dövlət Ehtiyat Fonduna köçürülən məbləğ | - | (27,708) | - | - | (27,708) |
| Digər dövlət müəssisələrinə ötürülmüş xalis aktivlər | - | (4,873) | - | - | (4,873) |
| Səhmdar yatırımları | - | 251,978 | - | - | 251,978 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **1,760,495** | **2,711,696** | **2,061** | **(2,164,739)** | **2,309,513** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | (6,448) | 175,112 | 168,664 |
| Səhmdar yatırımları | - | 309,133 | - | - | 309,133 |
| Dövlət Ehtiyat Fonduna köçürülən məbləğ | - | (1) | - | - | (1) |
| Məzənnə fərqi üzrə ehtiyat | - | - | - | (4,764) | (4,764) |
| **31 dekabr 2023-ci il tarixinə qalıq** | **1,760,495** | **3,020,828** | **(4,387)** | **(1,994,391)** | **2,782,545** |

## "AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

***(min Azərbaycan manatı ilə)***

| | 2023 | 2022 |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| *İl üzrə mənfəət* | 175,112 | 436,506 |
| *Düzəlişlər:* | | |
| Mənfəət vergisi xərci | 61,332 | 98,432 |
| Köhnəlmə və amortizasiya | 278,518 | 272,532 |
| Əmlak, tikili, avadanlıq və onların alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə zərərinin bərpası | (766) | (3,070) |
| Mal-material ehtiyatları üzrə dəyərsizləşmə zərəri | 5,895 | 4,835 |
| Digər gəlirlər (torpaq, tikili və avadanlığın silinməsi üzrə gəlir) | (198) | (4,128) |
| Ticarət və digər debitor borcları üzrə dəyərsizləşmə zərəri | 798 | 12,025 |
| Verilmiş avanslar üzrə dəyərsizləşmə zərəri | - | 2,712 |
| Xarici valyuta mübadiləsindən gəlir | (160,351) | (204,401) |
| Xarici valyuta mübadiləsindən zərər | 144,521 | 98,944 |
| Elektrik şəbəkəsinə qoşulma haqqı və digər satışlar | (152) | (5,317) |
| Maliyyə xərcləri, xalis | 24,590 | 25,269 |
| **Dövriyyə kapitalında hərəkətlərdən əvvəl pul daxilolmaları** | **529,299** | **734,339** |
| *Dövriyyə kapitalında hərəkətlər:* | | |
| Mal-materiallarda dəyişiklik | (9,048) | (16,572) |
| Əvəzləşdirilə bilən ƏDV-də dəyişiklik (iii) | (199,414) | (22,710) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | (9,133) | (170,886) |
| Avans ödənişlərində dəyişiklik | (16,246) | 14,880 |
| Ticarət və digər kreditor borclarında dəyişiklik (ii) | 22,911 | (56,661) |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində dəyişiklik (iii) | 184,024 | 23,049 |
| **Əməliyyat fəaliyyətlərindən əldə olunan pul vəsaitləri** | **502,393** | **505,439** |
| Ödənilmiş mənfəət vergisi (iii) | (8,736) | (167) |
| Ödənilmiş faiz | (5,408) | - |
| **Əməliyyatlar fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **488,249** | **505,272** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlığın alınması (ii) | (705,966) | (457,063) |
| Tikinti işləri üçün verilmiş avanslar | (304,686) | (115,331) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | **(1,010,652)** | **(572,394)** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Səhmdar yatırımlarının əldə edilməsi (i) | 201,599 | 149,222 |
| Dövlət subsidiyalarının əldə edilməsi | 10,301 | - |
| Borc vəsaitləri üzrə pul daxilolmaları | 191,053 | - |
| **Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **402,953** | **149,222** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM / (AZALMA)** | **(119,450)** | **82,100** |
| **İLİN ƏVVƏLİNƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **250,000** | **176,543** |
| Xarici valyutada saxlanılan pul vəsaitlərinin və onların ekvivalentlərinin qalıqlarına valyuta məzənnəsindəki dəyişikliklərin təsiri | (10,963) | (8,643) |
| **İLİN SONUNA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **119,587** | **250,000** |